**“___________” Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının “___” ________ 202__-ci il tarixli Qərarı (Protokol № ___) ilə təsdiq edilmişdir.**

**Müşahidə Şurasının Sədri**

**______________**

**“___________________________” Məhdud Məsuliyyətli Cəmiyyəti**

# RƏQABƏT HÜQUQUNA UYĞUNLUQ

# SİYASƏTİ

REQABET.AZ

**BAKI – 2026**

# MÜNDƏRİCAT

1. MƏQSƏD VƏ ƏHATƏ DAİRƏSİ ........ 3
2. ƏSAS PRİNSİPLƏR VƏ QADAĞALAR ........ 3
3. HƏSSAS MƏLUMATLARIN MÜBADİLƏSİ ........ 4
4. RƏQABƏT ORQANI İLƏ MÜNASİBƏTLƏR ........ 4
5. HESABATLILIQ VƏ SANKSİYALAR ........ 5
6. TƏLİM VƏ MONITORİNQ ........ 5
7. TƏCHİZATÇILAR ÜÇÜN RƏQABƏT ÖHDƏLİKLƏRİ ........ 5
8. YEKUN MÜDDƏALAR ........ 5

REQABET.AZ

## 1. MƏQSƏD VƏ ƏHATƏ DAİRƏSİ

**1.1.** Bu Siyasətin məqsədi [şirkətinizin adı] (bundan sonra - Şirkət) fəaliyyətinin Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə (bundan sonra – Məcəllə) tam uyğunluğunu təmin etmək, rəqabət hüququ pozuntularından irəli gələn hüquqi və reputasiya risklərini minimallaşdırmaq, habelə Şirkətin bütün əməkdaşları arasında qanuni və etik bazar davranışı mədəniyyətini formalaşdırmaqdır.

**1.2.** Bu Siyasət Şirkətin bütün əməkdaşlarına, rəhbər şəxslərinə, habelə Şirkətin adından hərəkət edən bütün üçüncü tərəflərə şamil edilir. Bu Siyasətlə tanışlıq hər bir əməkdaş üçün məcburidir.

## 2. ƏSAS PRİNSİPLƏR VƏ QADAĞALAR

**2.1.** Şirkət rəqabət hüququnun sıfır tolerantlıq prinsipinə sadiqdir.

**2.2.** Rəqabəti məhdudlaşdıran razılaşmalar qəti qadağandır. Aşağıdakı hərəkətlər bu qadağanın əhatəsinə daxildir:

2.2.1. Rəqiblərlə qiymətlərin, endirimlərin və ya tariflərin müəyyən edilməsi barədə hər hansı rəsmi və ya qeyri-rəsmi razılaşmaya girmək;

2.2.2. Bazarların, ərazilərin və ya müştərilərin, o cümlədən satış kanallarının rəqiblər arasında bölüşdürmək;

2.2.3. Müəyyən təchizatçılara və ya müştərilərə qarşı rəqiblərlə birgə kollektiv məhdudiyyətlər tətbiq etmək;

2.2.4. Dövlət, özəl tenderlərdə və ya hərraclarda rəqiblərlə qiymət və ya iştirak şərtlərini öncədən razılaşdırmaq;

2.2.5. Alıcıya və ya distribütora məhsulu hansı minimum qiymətə satmalı olduğunu məcburi şəkildə qəbul etdirmək;

2.2.6. Distribütorun öz təşəbbüsü ilə ona müraciət edən müştəriyə satış etməsini qadağan etmək;

2.2.7. Rəqib şirkət, onun rəhbərliyi və ya məhsulları barədə yalan, təhrif olunmuş və ya əsassız mənfi məlumatlar yaymaq;

2.2.8. Rəqibin əmtəə nişanını, qablaşdırma dizaynını və ya reklam materiallarını müştərini çaşdıracaq dərəcədə kopyalamaq;

2.2.9. Şirkətin öz məhsulunun keyfiyyəti, xassələri və ya qiyməti barədə bilərəkdən yalan reklam və ya məlumat vermək;

2.2.10. Tenderdə, dövlət satınlalmalarında, o cümlədən hərraclarda iştirak edəcək rəqiblərlə əvvəlcədən hər hansı razılaşma (qiymət, tenderdən imtina, texniki xüsusiyyətlər və s.) əldə etmək;

**2.3.** Şirkət Azərbaycan Respublikası Rəqabət Məcəlləsinə əsasən təmərküzləşmə hesab edilən hərəkətlərin Azərbaycan Respublikası Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən (bunan sonra – Agentlik) icazə alınmasının tələb edib-edilmədiyini müəyyənləşdirmək üçün prosesi mütləq şəkildə Şirkətin Hüquq üzrə struktur bölməsi ilə əlaqələndirməlidir.

**2.4.** Şirkət dövlət və özəl tenderlərdə, həmçinin hərraclarda iştirak edərkən bütün qərarlarını — təklif edəcəyi qiyməti, texniki təklifi, iştirak edib-etməmək qərarını rəqabət ruhunda və rəqiblərdən tamamilə müstəqil şəkildə qəbul edir.

REQABET.AZ

**2.5.** Şirkət müvafiq bazarda hökmran mövqe tutduğu və ya nisbətən yüksək bazar gücünə malik olduğu təqdirdə Şirkətin əməkdaşları aşağıdakı davranışlardan çəkinməlidir:

2.5.1. İqtisadi əsaslandırma olmadan aşağı və ya yüksək inhisar qiymətləri tətbiq etmək;

2.5.2. Eyni şərtlər daxilində fərqli müştərilərə obyektiv səbəb olmadan fərqli qiymət və ya şərtləri tətbiq etmək;

2.5.3. Rəqiblərin rentabelli fəaliyyət göstərməsinə imkan verməyən qiymət hədlərini müəyyən etmək;

2.5.4. Bir məhsulun satışını digər məhsulun məcburi alışı ilə şərtləndirmək;

2.5.5. Obyektiv zərurət olmadan müştərilərlə əməkdaşlıq etməkdən imtina etmək.

## 3. HƏSSAS MƏLUMATLARIN MÜBADİLƏSİ

**3.1.** Şirkət əməkdaşlarının aşağıdakı məlumatları rəqib şirkətlərə, onların əməkdaşlarına və ya nümayəndələrinə paylaşa, təqdim edə və ötürə bilməz:

3.1.1. Cari və gələcək qiymət strategiyaları, tarif cədvəlləri, endirim faizləri;

3.1.2. Maliyyə marjaları və rentabellik göstəriciləri;

3.1.3. Xüsusi müştəri siyahıları;

3.1.4. İstehsal gücü, məhsul ehtiyatları, yeni məhsul planları və bazara çıxış tarixləri;

3.1.5. tenderlərə və ya hərraclara dair strateji məlumatlar, o cümlədən qiymət və ya texniki təkliflər barədə hər hansı məlumat.

**3.2.** Assosiasiyalarda və ya konfranslarda iştirak zamanı rəqabət qanunvericiliyini poza biləcək mövzular (qiymətttətbiq etmə, bazarın və ya müştərilərin bölüşdürülməsi, rəqabətin məhdudlaşdırılması, istehsalın və ya satış həcminin tənzimlənməsi və s.) müzakirə edilərsə, Şirkətin əməkdaşı dərhal etirazını bildirməli və görüşü tərk edərək bu barədə Şirkətin Hüquq üzrə və Komplayens üzrə struktur bölməsinə məlumat verməlidir.

## 4. RƏQABƏT ORQANI İLƏ MÜNASİBƏTLƏR

**4.1.** Şirkət Agentliyinin qanuni tələblərinə hörmətlə yanaşır və tam əməkdaşlıq edir.

**4.2.** Agentliiyin əməkdaşları Şirkətdə monitorinq apardığı hallarda, aşağıdakı addımları atılmalıdır:

4.2.1. Agentliyin əməkdaşlarına müqavimət göstərməmək, onlardan xidməti vəsiqələrini təqdim etmələrini tələb etmək və Agentliyin əməkdaşı olduqlarını yoxlamaq;

4.2.2. Dərhal Şirkətin Hüquq üzrə və Komplayens üzrə struktur bölmələrini məlumatlandırmaq;

4.2.3. Agentliyin əməkdaşları tərəfindən tələb edilən sənədləri gizlətməmək və ya məhv etməmək;

4.2.4. Agentliyin əməkdaşları tərəfindən yalnız tələb edilən sənədləri təqdim etmək;

4.2.5. Yoxlama protokolunu Hüquq üzrə struktur bölmənin rəyi olmadan imzalamamaq.

**4.3.** Agentlikdən Şirkətə daxil olan hər hansı yazılı və ya şifahi sorğunu Şirkətin Hüquq üzrə struktur bölməsi ilə razılaşdırılmadan cavablandırmaq qadağandır.



REQABET.AZ

## 5. HESABATLILIQ VƏ SANKSİYALAR

Şirkətin hər bir əməkdaşı rəqabət qanunvericiliyinin pozulması şübhəsi olduqda [email ünvanı] elektron poçt ünvanı vasitəsilə Şirkətin Komplayens üzrə struktur bölməsinə məlumat verməlidir. Həmin əməkdaş heç bir formada mənfi nəticə ilə — o cümlədən işdən çıxarılma, vəzifə dəyişikliyi, mükafatdan məhrumetmə ilə — üzləşməyəcəkdir.

## 6. TƏLİM VƏ MONITORİNQ

**6.1.** Şirkətin Komplayens üzrə struktur bölməsi ildə bir dəfədən az olmayaraq bütün əməkdaşlar üçün rəqabət hüququ üzrə təlimlər təşkil edir.

**6.2.** Bu Siyasətin icrası dövri olaraq Şirkətin Audit üzrə struktur bölməsi tərəfindən yoxlanılır.

## 7. TƏCHİZATÇILAR ÜÇÜN RƏQABƏT ÖHDƏLİKLƏRİ

**7.1.** Şirkət ilə müqavilə bağlayan hər bir Təchizatçı bu Siyasətə istinad etməklə aşağıdakı öhdəlikləri qəbul edir və məsuliyyət daşıyır:

- 7.1.1. Şirkətin keçirdiyi satınalmalarda rəqibləri ilə hər hansı sövdələşməyə (qiymət, ərazi və ya iştirak və s.) girməyəcək və tenderin şəffaflığını pozacaq hərəkətlər etməyəcək;
- 7.1.2. Şirkətə qarşı yuxarı inhisar qiyməti tətbiq etməməyi və Şirkətin rentabelli fəaliyyət göstərməsinə mane olan qiymət siyasətindən çəkinmək;
- 7.1.3. Şirkətin məlumatlarını rəqiblərə təqdim etməmək və rəqabət balansını poza biləcək məlumat mübadiləsindən çəkinmək..

**7.2.** Şirkət bu Siyasətin pozulmasını Müqavilənin əsaslı şəkildə pozulması hesab edir və Təchizatçı tərəfindən rəqabət qanunvericiliyinə zidd hərəkətlərə yol verildiyi təqdirdə Müqaviləni birtərəfli qaydada ləğv etmək hüququnu özündə saxlayır.

## 8. YEKUN MÜDDƏALAR

**8.1.** Bu Siyasət Azərbaycan Respublikasının qanunvericiliyi və Şirkətin Nizamnaməsinə uyğun olaraq tərtib edilmişdir. Bu Şirkətdə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi, Şirkətin Nizamnaməsi ilə tənzimlənir. Bu Siyasətin müddəaları ilə Azərbaycan Respublikasının qanunvericiliyi və ya Şirkətin Nizamnaməsi arasında ziddiyyət olduğu halda, Azərbaycan Respublikasının qanunvericiliyi və ya Şirkətin Nizamnaməsinin müddəaları üstün hesab ediləcəkdir.

**8.2.** Bu Siyasətdə nəzərdə tutulmuş funksiyaların doğru və vaxtında yerinə yetirilməsinə görə müvafiq struktur bölmələrin rəhbərləri və səlahiyyətli işçiləri bilavasitə məsuliyyət daşıyır. Bu Siyasətin pozulması əməkdaşın əmək müqaviləsinə xitam verilməsi daxil olmaqla, intizam məsuliyyətinə səbəb ola bilər.

**8.3.** Bu Siyasətə əlavə və dəyişikliklər Müşahidə Şurasının qərarı ilə mümkündür.

**8.4.** Bu Siyasət Müşahidə Şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir.

REQABET.AZ